Azərbaycan Texniki Universitetinə

Əliheydər Panaliyev tərəfindən

# Ə R İ Z Ə

Bildirirəm ki, Azərbaycan Texniki Universitetinə qrif almaq üçün təqdim etdiyim 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəs üçün təsdiq olunan "Nəqliyyatda idarəetmə" ixtisaslaşma (MFİS -2713, seçmə), "Rabitə xidməti üzrə biznesin idarə edilməsi" ixtisaslaşma (MİFS-4212, seçmə), "Nəqliyyatda investisiya layihələrinin qiymətləndirilməsi" ixtisaslaşma (MİFS-2722, seçmə), "Firma daxili planlaşdırma" ixtisaslaşma (MİFS-2731, seçmə) fənn proqramlarının əlyazmasında başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməmişdir. Bunun əksi müəyyən olunduğu təqdirdə, verilmiş qrifin və bundan irəli gələn digər hüquq və əldə edilən üstünlüklərin ləğvinə səbəb ola biləcəyindən xəbərdaram.

İmza: ______________________ Panaliyev Əliheydər Vəliəhəd oğlu

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ SƏNƏDLƏR ÜÇÜN

Tarix « _25_ » __aprel__ 2024- ci il

Mit CamScanner gescannt

Azərbaycan Texniki Universitetinin
Elmi-Metodiki Şurasının sədri
prof. N.A. Yusifbəyli
"Beynəlxalq ticarət, logistika və
marketinq" kafedrasinin müdiri
vəzifəsini müvəqqəti icra edən
dos. L. T. Neymətova tərəfindən

TƏQDİMAT

Kafedranın əməkdaşı i.f.d., dos. Panaliyev Əliheydər Vəliəhəd oglu tərəfindən

1. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MFİS -2713 "Nəqliyyatda idarəetmə" fənni üzrə azərbaycan dilində və 12 səhifə həcmində "Nəqliyyatda idarəetmə" adlı fənnin proqramı tərtib edilmişdir.

2. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-4212 "Rabitə xidməti üzrə biznesin idarə edilməsi" fənni üzrə azərbaycan dilində və 10 səhifə həcmində "Rabitə xidməti üzrə biznesin idarə edilməsi" adlı fənnin proqramı tərtib edilmişdir.

3. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-2731 "Firma daxili planlaşdırma" ixtisaslaşma fənni üzrə azərbaycan dilində və 11 səhifə həcmində "Firma daxili planlaşdırma" adlı fənnin proqramı tərtib edilmişdir.

4. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris

Mit CamScanner gescannt

planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-2722 "Nəqliyyatda investisiya layihələrinin qiymətləndirilməsi" fənni üzrə azərbaycan dilində və 14 səhifə həcmində "Nəqliyyatda investisiya layihələrinin qiymətləndirilməsi" adlı fənnin proqramı tərtib edilmişdir.

5. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi", ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına məcburi statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFÜ-2701 "Logistika" ixtisas fənni üzrə azərbaycan dilində və 12 səhifə həcmində "Logistika" adlı fənnin proqramı tərtib edilmişdir.

Müəllif işin hazırlanmasında özündən öncə yazılmış əsərlərdən istifadə etmişdir.

Əsərlərə mütləq mənbə kimi istinad edilmişdir.

İstinadlardan müzakirə və təhlil məqsədilə yararlanılmışdır.

İstifadə edilmiş mənbələr işin elmi-texniki tərəfinin aktual olmasını isbat edir.

Yuxarıda qeyd olunan vəsaitlərinin ədəbiyyatlardan və digər informasiya mənbələrindən zəruri, etik va qanuni əsaslarla istifadə olunaraq hazırlanmasını təsdiq edir.

Kafedra müdiri vəzifəsini
müvəqqəti icra edən:

Tarix:

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ
SƏNƏDLƏR ÜÇÜN

Mit CamScanner gescannt

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**TƏSDİQ EDİRƏM**
AzTU-nun tədris işləri üzrə prorektoru
_____________ N.A. Yusifbəyli
_____________ 2021-ci il

# NƏQLİYYATDA İDARƏETMƏ

fənninin
PROQRAMI
(mağistr səviyyəsi üçün)

| | |
|---|---|
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **İxtisas:** | 060405 - "Sənayenin təşkili və idarə edilməsi" |
| **İxtisaslaşma:** | İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (nəqliyyat üzrə) |
| **İxtisas kafedrası:** | Beynəlxalq ticarət, logistika və marketinq |
| **Fənni tədris edən kafedra:** | Beynəlxalq ticarət, logistika və marketinq |

| | |
|---|---|
| **Kurs:** | 1 |
| **Semestr:** | 1 |
| **Kreditlərin sayı:** | 6 |
| **Fənnə ayrılan ümumi saatlar:** | 180 |
| **Auditoriya saatlarının cəmi:** | 30 |
| **o cümlədən:** | |
| **Mühazirələr:** | 30 saat |
| **Laboratoriya:** | |
| **Seminar, praktiki məşğələ:** | |
| **Tələbənin auditoriyadankənar işi:** | 150 saat |

**BAKI-2021**

Mit CamScanner gescannt

MİFS-2713 "Nəqliyyatda idarəetmə" fənninin proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının Ali Təhsil Proqramının və 21 may 2020-ci il tarixində AzTU-nun Elmi Şurası tərəfindən təsdiq edilmiş 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının tədris planı əsasında tərtib olunmuşdur.

**Fənn proqramı tərtib etdi:**
Azərbaycan Texniki Universitetin
"Beynəlxalq ticarət, logistika və marketinq"
kafedrasının dosenti,
iqtisad elmləri namizədi ____________ **Panaliyev Əliheydər Vəliəhəd oğlu**

**Rəyçilər:**

1. Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İqtisadi nəzəriyyə və marketinq" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru **Ağayev Asəf Mirzə oğlu**

2. Azərbaycan Texniki Universitetin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının müdiri, iqtisad elmləri doktoru **Quliyev Rüfət Atakişi oğlu**

3.Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasının dosenti, iqtisad elmləri namizədi **Sadıqov Bulud Cahangir oğlu**

Fənn proqramı "Beynəlxal ticarət, logistika və marketinq" kafedrasının iclasında müzakirə olunmuş və təsdiq edilməsi üçün tövsiyə edilmişdir:

( 29 sentyabr 2021-ciil tarixli iclas 1 №-li protokol)

**Kafedra müdiri, i.e.d., professor** ____________ **Quliyev R. A.**

Fənn proqramı "İqtisadiyyat və idarəetmə" fakültəsinin Elmi Şurasının iclasında müzakirə olunmuş,bəyənilmiş və təsdiqə tövsiyə edilmişdir:

("16" noyabr 2021-ci il tarixli iclas "3" №-li protokol)

**Dekan i.f.d, dos.** ____________ **Musayeva F. Q**

Mit CamScanner gescannt

## Mündəricat


| | |
|---|---|
| Giriş | 4 |
| 1.Ümumi qaydalar | 5 |
| 1.1.Fənnin tədrisinin əsas məqsədi | 5 |
| 1.2. Fənnin tədrisinin əsas vəzifəsi | 5 |
| 1.3. Fənn üzrə bilik və bacarıqlara olan tələblər | 5 |
| 1.4. Fənnin digər fənlərlə əlaqəsi | 6 |
| 2. Fənnin məzmunu | 6 |
| 2.1. Fənn üzrə saatların bölüşdürülməsi | 6 |
| 2.2. Fənnin mövzular üzrə planı | 7 |
| 2.3. Fənnin dərs növləri üzrə paylanması | 8 |
| 2.3.1. Mühazirə dərslərinin mövzuları və həcmi | 8 |
| 2.3.2. Məşğələ dərslərinin mövzuları və həcmi | 12 |
| 2.3.3.Tələbənin sərbəst işin mövzuları və həcmi | 13 |
| 2.3.4. Sərbəst işlərin nümunəvi mövzular | 14 |
| 3.Fənn üzrə tədris-metodiki materiallar | 14 |
| 3.1. Əyani və digər tədris-metodiki vəsaitlərin, metodiki materialların siyahısı | 14 |
| 3.2.Tövsiyə olunan ədəbiyyat | 14 |
| 3.2.1.Əsas ədəbiyyat | 14 |
| 3.2.2. Əlavə ədəbiyyat | 15 |


Mit CamScanner gescannt

## Giriş

Nəqliyyat sistemi ərazilərin və təbii sərvətlərin əlçatanlığını və səmərəli inkişafını təmin edir, məhsul istehsal və istehlak bölgələrini birləşdirir, əmtəə bazarlarının sərhədlərini genişləndirir və həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Digər infrastruktur sənaye sahələri - enerji və rabitə ilə yanaşı, nəqliyyat cəmiyyətin həyatı üçün əsas şərtləri təmin edir və sosial, iqtisadi və siyasi problemlərin həlli üçün ən vacib vasitədir.

Nəqliyyat idarəetmə obyekti olaraq son dərəcə mürəkkəbdir. Bu cəmiyyətin, dövlətin və biznesin bu sahədə maraqlarının bir - birinə qarışması, müxtəlif nəqliyyat növləri arasındakı dərin fərqlər, nəqliyyat sisteminin qarşılıqlı fəaliyyət göstərən obyektlərinin ərazi uzaqlığı, habelə maraqları toqquşan xeyli sayda iqtisadi subyektlərin bir nəqliyyat fəaliyyətinə cəlb edilməsi ilə əlaqədardır. Buna görə nəqliyyat sisteminin səmərəliliyi bir çox texniki, təşkilati, iqtisadi və sosial amillərin birləşməsi ilə müəyyən edilir.

Sosial-iqtisadi kompleksdə nəqliyyatın rolu ikiqatdır. Bir tərəfdən nəqliyyat infrastrukturu və nəqliyyat xidmətləri, bölgələri, sənaye sahələrini, iqtisadi əlaqələri təmin etmək ehtiyaclarını ödəməli, sosial və iqtisadi inkişafın prioritetlərini ən yaxşı şəkildə qarşılamalıdır.

Digər tərəfdən nəqliyyat güclü bir sistem amilidir. Yeni kommunikasiya marşrutlarının, dəniz limanlarının yaranması və nəqliyyat texnologiyalarının təkmilləşdirilməsi iqtisadiyyat və sosial sahə üçün yeni imkanlar açır və nəqliyyat xidmətlərindən istifadə edənlərin iqtisadi davranışlarına təsir göstərir.

Nəqliyyatda olan yeniliklər, logistika sistemlərinin nəqliyyat dəstəyi sahəsində yeni imkanlar açdı.

İqtisadiyyatın inkişafına logistika yanaşması ümumi xərclərin və mənfəətin sistemli təhlilinə, məhsul istehsalının bütün iştirakçıları arasında funksiyaların, xərclərin və mənfəətin optimal şəkildə bölüşdürülməsi və istehlakçıya təqdim edilməsinə əsaslanır. Konteynerləşmə iqtisadi qloballaşmanın vacib bir hissəsinə çevrildi və bu da nıqletmə xərclərində kəskin azalma yaratdı. Bu, aparıcı əmtəə istehsalçılarına istehsal müəssisələrini son istifadə bazarlarından on minlərlə kilometr uzaqda yerləşən ucuz işçi qüvvəsi olan bölgələrə köçürməyə başlamağa imkan verdi. Nəticədə, istehsal və paylama prosesləri həqiqətən qlobal miqyaslı hala gəldi və bu da öz növbəsində istehsal və paylanmanın daşınması üçün yeni tələblər yaratdı.

Nəqliyyat xidmətlər istehsal edən bir sahədir, lakin müasir nəqliyyatın əhəmiyyətini müəyyənləşdirən mütəxəssislər onu istehsalın həyata keçirilməsinə, ritminə və həcminə tamamilə bağlı olduğu bir sahə kimi maddi istehsal sahələrinə yönəldirlər.

İqtisadiyyatda nəqliyyat həm xidmətlər, həm də istehsal sahəsində mövcud olan müəssisələri (istehsal) təmin etmək, yeni ərazilərin, obyektlərin inşasında, yeni sənaye sahələrinin yaradılmasında və inkişafında ilk elementdir.

Nəqliyyat bütün lazımi ehtiyyatların tədarükünü, çıxarılan xammalın və ya istehsal olunmuş məhsulların ixracını təmin edir.

Nəqliyyat sahəsinin işini səmərəli şəkildə təşkil etmək və idarə etmək şərtlərinin öyrənilməsi nəqliyyatda idarəetmə kimi formalaşmış bir elmin əsasını təşkil edir.

“Nəqliyyatda idarəetmə” fənni **060405 - “Sənayenin təşkili və idarə edilməsi”** ixtisası üzrə magistratura pilləsində təhsil alan tələbələr üçün tədris olunan ixtisaslaşmanın əsas fənlərinə aid edilir.

“Nəqliyyatda idarəetmə” fənnində nəqliyyatın müasir iqtisadiyyat və logistika sahəsindəki rolunu, müxtəlif nəqliyyat sistemlərinin səciyyəvi xüsusiyyətləri, nəqliyyat sistemlərinin idarə edilməsi mexanizmlərini təhlil edilir. Ayrı-ayrı nəqliyyat növlərinin xas xüsusiyyətlər öyrənilir. Nəqliyyat logistikasında ən yaxşı dünya təcrübəsinin elementlərinə xüsusi diqqət yetirilir.

Mit CamScanner gescannt

"Nəqliyyatda idarəetmə" fənni, iqtisadiyyat və logistikada nəqliyyat sistemləri, nəqliyyat sistemlərinin idarə edilməsinin xüsusiyyətləri, nəqliyyat sistemlərinin iqtisadiyyatının elementləri, yüklər, yük axınları və onların xüsusiyyətləri, nəqliyyat sistemlərinin infrastrukturu, nəqliyyat operatorları və nəqliyyat xidmətləri, nəqliyyatın fəaliyyətinin dövlət tənzimlənməsi, daşımalarla əlaqəli müqavilələr və sənədlər, nəqliyyat logistikasında müxtəlif nəqliyyat növlərinin xüsusiyyətləri, multimodal və intermodal daşımaların idarə edilməsi fəaliyyətlərinə yönəlmiş metodiki, təşkilati və texniki tədbirləri özündə əks edir. Bu baxımdan "Nəqliyyatda idarəetmə" fənnin tədrisi aktualdır.

Fənn proqramı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisasının Ali Təhsil Proqramının və Tədris planının tələblərinə uyğun işlənib hazırlanmışdır. Fənn proqramı Azərbaycan Texniki Universitetində **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisası üzrə magistr hazırlığı üçün tərtib olunmuşdur. Proqrama fənnin tədrisinin mərhələlər üzrə məzmunu və həcmi daxil edilmişdir.

Fənn proqramı əsasında işçi proqram (sillabus) hazırlanır.

Fənn proqramı müəllim və tələbələrin istifadəsi üçün nəzərdə tutulmuşdur.

## 1. Ümumi qaydalar

### 1.1.Fənnin tədrisinin məqsədi

"Nəqliyyatda idarəetmə" fənninin məqsədi 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə mağistr pilləsində təhsilalanlarda nəqliyyat sisteminin, daşıma prosesinin idarəetmə qurluşu (strukruru) və prinsipləri, nəqliyyat sisteminin maddi-texniki bazası, nəqliyyat vasitələrinin istismarı işlərində, nəqliyyat və texniki vasitələrdən istifadə göstəriciləri, nəqliyyat yollarının etibarlılığı və təhlükəsizliyi sahəsində əsas anlayışlar barəsində təsəvvürlərini, bacarıqlarını formalaşdırmaq, nəqliyyat müəssisələrinin fəaliyyətinin nəticələrini toplamağa imkan verən bilik, vərdiş və bacarıqları üzə çıxaran nəqliyyatın idarə edilməsi metodlarının, nəqliyyat növləri arasında qarşılıqlı əlaqələrin idarə olunması və bütövlükdə nəqliyyat sahəsinin (sisteminin) idarə edilməsinin səmərəliliyinin artırılması barədə qərarlar qəbul etmək haqqında peşəkar, sistemli bilik və bacarıqlar aşılamaq, formalaşdırmaq, inkişaf etdirmək və möhkəmləndirməkdən ibarətdir.

### 1.2.Fənnin tədrisinin əsas vəzifəsi

Fənnin tədrisinin əsas vəzifəsi 060405 - "Sənayenin təşkili və idarə edilməsi" - ixtisası üzrə təhsil alan bakalavrlarda nəqliyyatın iqtisadiyyatı barədə davamlı biliklərin formalaşdırılması üzrə lazım olan nəzəri, təcrübi bilik və bacarıqların aşılanmasından ibarətdir.

### 1.3 Fənn üzrə bilik və bacarıqlara olan tələblər

Fənnin öyrənilən materialın mənimsənilməsi nəticəsində tələbələr aşağıdakıları
**bilməlidir:**

- nəqliyyatın müasir iqtisadiyyat və logistikada rolu;
- nəqliyyat sistemlərinin idarə edilməsinin xüsusiyyətləri;
- nəqliyyat fəaliyyətinin əsas texnoloji və iqtisadi prinsipləri;
- müəyyən nəqliyyat növlərinin xüsusiyyətləri və xidmətlərinin logistika sistemlərində və təchizat zəncirlərində yeri;

Mit CamScanner gescannt

- intermodal daşımaların təşkili prinsipləri;
- nəqliyyat logistika sahəsində beynəlxalq təcrübənin elementləri;
- əsas nəqliyyat terminologiyasını;
- Azərbaycanın nəqliyyat sisteminin əsas xarakteristikalarını və səciyyəvi xüsusiyyətlərini;

**bacarmalıdır:**

- nəqliyyat sistemlərinin vəziyyətini və inkişaf tendensiyalarını təhlil etmək;
- nəqliyyat bsisteminin fəaliyyətində əsas problemləri müəyyən etmək;
- nəqliyyatın səmərəliliyini artırmağın mümkün yollarını müəyyənləşdirmək;
- nəqliyyat vasitələrinin və texnologiyaların seçilməsinə dair qərarları əsaslandırmaq;
- nəqliyyat operatorlarının təklif etdiyi xidmətləri təhlil etmək;
- nəqliyyatla əlaqədar normativ hüquqi aktların müddəalarını tətbiq etmək.
- nəqliyyat logistikasına olan tələbləri müəyyən etmək bacarığı;
- nəqliyyatla əlaqədar elementar hesablamaların aparılması üsulları;
- nəqliyyatda dövlət-özəl tərəfdaşlığın təşkilinə yanaşmalar;
- nəqliyyat sənədləri ilə işləmək bacarığı;
- nəqliyyat sistemlərində davamlı inkişaf və "yaşıl logistika" prinsiplərini tətbiq etməyi.

### 1.4. Fənnin digər fənlərlə əlaqəsi

"Nəqliyyatda idarəetmə" fənni bir sra iqtisadiyyat və nəqliyyat sahəsinin texniki, texnoloji və digər fənlərlə qarşılıqlı əlaqəli öyrənilir. Məsələn, "Avtomobil daşımaları və vahid nəqliyyat sistemi", "Nəqliyyat vasitələrinin texniki istismarının əsasları", "Beynəlxalq nəqliyyat sistemləri", "Əhaliyə nəqliyyat xidmətinin təşkili", "Turizmin nəqliyyat təminatı", "Nəqliyyat vasitələrinin konstruksiyası", "Logistikanın əsasları", "Nəqliyyat logistikası", "Daşımaların təşkili və menecment", "Nəqliyyat proseslərinin idarə edilməsi", "Daşımaların sığortası", "Nəqliyyat ekspedisiya işlətinin təşkili", "Marketinq", "Dünya iqtisadiyyatı", "Statistika", "Menecment" və s.
Fənnin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar sonrakı dövrlərdə 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (nəqliyyat üzrə) İxtisaslaşması üzrə tədris fənlərinin öyrənilməsində, praktiki tətbiqində, kurs işlərinin, bakalavr buraxılış işlərinin və magistr dissertasiyalarının işlənib hazırlanmasında istifadə olunacaqdır.

## 2. Fənnin məzmunu

### 2.1 Fənn üzrə saatların bölüşdürülməsi

060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının tədris planına uyğun olaraq, "Nəqliyyatda idarəetmə" fənninin tədrisinə 30 saat həcmində auditoriya saatları nəzərdə tutulmuşdur. Onun 30 saat da mühazirə dərslərinə dərslərinə ayrılmışdır. Tələbələrin sərbəst işi (TSİ) 150 saat təşkil edir. Bura Sİ – sərbəst işin yerinə yetirilməsi və təhvil verilməsi, mühazirələrə, seminarlara, laboratoriya dərslərinə, kollokviumlara hazırlıq daxildir. Tələbələrə həcmli və elmi tutumlu 1 sərbəst tapşırıq verilir (zəruri hallarda sərbəst işlərin sayı artırıla bilər) və 10 balla qiymətləndirilir. Semestrin sonunda tələbənin fənn üzrə praktiki məşğələ və kollokviumlar 30, sərbəst tapşırıqlar 10 və davamiyyət üzrə 10 balla qiymətləndirilir. Fənn üzrə qalan 50 bal imtahanda müəyyən edilir.
Tədris yükünün 1-ci semestrdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Fənnin tədrisi imtahan ilə nəticələnir. Təhsil proqramında fənn üçün 6 kredit nəzərdə tutulmuşdur.

Mit CamScanner gescannt

### 2.2. Fənnin mövzular üzrə planı

| № | Mövzunun adı | Dərs yükünün həcmi (saat) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | Məşğələ | Labo-ratoriya | TSİ | Sİ yerinə yetirilməsi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1. | Giriş. İqtisadiyyat və logistikada nəqliyyat sistemləri | 13 | 2 | | | 8 | 3 |
| 2. | Nəqliyyat sistemlərinin idarə edilməsinin xüsusiyyətləri | 13 | 2 | | | 8 | 3 |
| 3. | Nəqliyyat sistemlərinin iqtisadiyyatının elementləri | 23 | 4 | | | 16 | 3 |
| 4. | Yüklər, yük axınları və onların xüsusiyyətləri | 23 | 4 | | | 16 | 3 |
| 5. | Nəqliyyat sistemlərinin infrastrukturu | 23 | 4 | | | 16 | 3 |
| 6. | Nəqliyyat operatorları və nəqliyyat xidmətləri | 13 | 2 | | | 8 | 3 |
| 7. | Nəqliyyat sistemlərində tənzimləmə və özünü tənzimləmə | 13 | 2 | | | 8 | 3 |
| 8. | Nəqletmə ilə (daşımalarla) əlaqəli müqavilələr və sənədlər | 13 | 2 | | | 8 | 3 |
| 9. | Nəqliyyat logistikasında müxtəlif nəqliyyat növlərinin xüsusiyyətləri | 33 | 6 | | | 24 | 3 |
| 10. | Multimodal və intermodal daşımalar | 13 | 2 | | | 8 | 3 |
| | Cəmi | 180 | 30 | | | 120 | 30 |

### 2.3 Fənnin dərs növləri üzrə paylanması
### 2.3.1. Mühazirə dərslərinin mövzuları və həcmi

| № | Mövzunun adı və ədəbiyyat şifrəsi | Auditor saatlar | TSİ |
|---|---|---|---|
| 1 | **Giriş. İqtisadiyyat və logistikada nəqliyyat sistemləri.** Logistik konsepsiyada nəqletmənin yeri və rolu. Logistikanın nəqliyyat təminatına və nəqliyyatın inkişaf tendensiyalarına qoyulan müasir tələblər. Azərbaycan Respublikasının nəqliyyat sisteminin əsas xüsusiyyətləri. | 2 | 2 |
| 2. | **Nəqliyyat sistemlərinin idarə edilməsinin xüsusiyyətləri.** Nəqliyyat sistemləri ilə bağlı əsas anlayışlar. Nəqliyyat sistemlərinin əsas növləri. Nəqliyyat sistemlərinin əsas xüsusiyyətləri. İdarəetmənin funksiyaları və onların nəqliyyatda tətbiqi. | 2 | 2 |
| 3. | **Nəqliyyat sistemlərinin iqtisadiyyatının elementləri.** Nəqliyyat və nəqliyyat xərclərinin iqtisadi qiymətləndirilməsi. Nəqliyyatda xərclərin idarə edilməsi və nəqliyyat miqyasında səmərə. Nəqliyyat tarifləri. Nəqliyyat logistikasında sığorta. | 4 | 4 |
| 4. | **Yüklər, yük axınları və onların xüsusiyyətləri.** Əsas yük təsnifatları. Yüklərin çəkiləri və həcmi. İstilik nəzarətli altında | 4 | 4 |

Mit CamScanner gescannt

| | | | |
|---|---|---|---|
| | daşınan yüklər. İri qabaritli və ağır çəkili yüklər. Təhlükəli yüklər. Yük partiyası və onun logistika proseslərinin səmərəliliyinə təsiri. Yük vahidlərinin iriləşdirilməsi. Yüklərin markalanması və avtomatik eyniləşdirilməsi. Yük axınlarının xarakteristikaları, təhlili və modelləşdirilməsi. | | |
| 5. | **Nəqliyyat sistemlərinin infrastrukturu.** Nəqliyyat infrastrukturu anlayışı və onun əsas xüsusiyyətləri. Nəqliyyat dəhlizləri. Azərbaycan və qonşu ölkələrin beynəlxalq nəqliyyat dəhlizləri. Avropa və Avrasiya nəqliyyat dəhlizləri. Rusiya beynəlxalq nəqliyyat dəhlizləri. Nəqliyyat dəhlizlərində tranzit daşımalar. Nəqliyyat terminalları və terminallarla daşıma texnologiyaları. Terminal nəqliyyat texnologiyasının ümumi prinsipləri. Terminalların təsnifatı və funksiyaları. Avtomobil nəqliyyatı terminalları. İntermodal terminallar. Logistika mərkəzləri. | 4 | 4 |
| 6. | **Nəqliyyat operatorları və nəqliyyat xidmətləri.** Nəqliyyat fəaliyyətinin quruluşu və əsas operator növləri. Ekspeditorlar və onların nəqliyyat xidmətləri bazarındakı rolu. Nəqliyyat xidmətləri bazarında 3PL provayderləri. İnteqrasiya edən şirkətlər. Nəqliyyat xidmətlərinin əsas növləri. Nəqliyyat xidmətlərinin keyfiyyətnin göstəriciləri. Nəqlietmə zamanı vaxtın dəyəri. | 2 | 2 |
| 7. | **Nəqliyyat fəaliyyətinin dövlət tənzimlənməsi.** Nəqliyyat fəaliyyətinin dövlət tənzimlənməsinin ilkin şərtləri və mexanizmləri. Nəqliyyat idarəetmə sistemində assosasiyaların və birliklərin rolu. Nəqliyyatda dövlət-özəl tərəfdaşlığı. Nəqliyyat sistemlərinin idarə olunmasında davamlı inkişaf prinsipləri. Azərbaycan Respublikasında ictimai nəqliyyatın dövlət idarəetmə sistemi. | 2 | 2 |
| 8. | **Nəqletmə ilə (daşımalarla) əlaqəli müqavilələr və sənədlər.** Nəqliyyat Qanunu və Logistikanın nəqliyyat təminatı. Nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı müqavilələr. Daşıyıcının məsuliyyəti. Nəqliyyat sənədləri. INCOTERMS və onun nəqletmə ilə (daşımalarla) əlaqəsi. | 2 | 2 |
| 9. | **Nəqliyyat logistikasında müxtəlif nəqliyyat növlərinin xüsusiyyətləri.** Nəqliyyat sistemində müxtəlif nəqliyyat növlərinin rolu və onların xarakteristikaları. Dəmir yolu nəqliyyatı. Dəmiryolu nəqliyyatının təşkili və texniki bazası.Logistika sistemlərində dəmir yolu nəqliyyatından istifadə. Azərbaycan Respublikasının dəmir yolu nəqliyyatı. Dəniz nəqliyyatı. Dəniz nəqliyyatının təşkili və texniki bazası. Dəniz nəqliyyatının logistika sistemlərində istifadəsi. Azərbaycan Respublikasının dəniz nəqliyyatı. Avtomobil nəqliyyatı. Avtomobil nəqliyyatının təşkili və texniki bazası.Logistika sistemlərdə avtomobil nəqliyyatının istifadəsi. Azərbaycan Respublikasının avtomobil nəqliyyatı.Hava Nəqliyyatı. Hava nəqliyyatının təşkili və texniki bazası. Logistika sistemlərində hava nəqliyyatının istifadəsi. Daxili su nəqliyyatı. Daxili su nəqliyyatının təşkili və texniki bazası. Logistika sistemlərində daxili su nəqliyyatının istifadəsi.. Azərbaycan Respublikasının daxili su nəqliyyatı. | 6 | 6 |

Mit CamScanner gescannt

| | | | |
|---|---|---|---|
| 10. | **Multimodal və intermodal daşımalar.** Multimodal nəqliyyatın yaranması üçün ilkin şərtlər və onların müasir logistikada rolu. İntermodal daşıma modelləri. Dünya konteyner sistemi. Kontreylerlər, dəyişən kuzalar və "kontinental" konteynerlər. İntermodal daşımaların operatorları və hüquqi tənzimlənməsi. | 2 | 2 |
| | **Cəmi** | **30** | **30** |

### 2.3.2. Məşğələ dərslərinin mövzuları və həcm

| № | Mövzunun adı və ədəbiyyat şifrəsi | Auditor saatlar | TSİ |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | Cəmi | - | - |

### 2.3.3. Tələbənin sərbəst işinin mövzuları və həcmi

Fənn proqramında nəzərdə tutulmuş mövzuların mənimsənilməsini möhkəmləndirmək məqsədi ilə tələbələr tərəfindən sərbəst işlər (Sİ) yerinə yetirilməlidir. Fənin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar Sİ-in hazırlanmasında öz əksini tapmalıdır.
Sərbəst işin həcmi, tərtibatı və qiymətləndirilməsi meyarları sillabusda izah olunur.
Tələbəyə fənn üzrə semestr ərzində 1 sərbəst işin (zəruri hallarda sərbəst işlərin sayı artırıla bilər) yerinə yetirilməsi tapşırığı verilir. Sərbəst işlərin tapşırıqları müxtəlif formada (referat, mühazirə mövzuları üzrə problem və praktiki xarakterli tapşırıqlar, məsələ, misal, sxem və ya modellərin işlənilməsi, fənn üzrə hesablama-cədvəl işləri, alqoritm və proqramların tərtib edilməsi və s.) ola bilər.
Sərbəst işlərin qəbulu fənn üzrə mühazirə dərslərini tədris edən müəllim və yaxud da kafedranın razılığı ilə məşğələ dərslərini tədris edən müəllim tərəfindən auditor saatlardan kənar saatlarda keçirilir.

### 2.3.4. Sərbəst işlərin nümunəvi mövzuları

| № | Mövzunun adı və ədəbiyyatın şifri | TSİ (saat) |
|---|---|---|
| 1. | Nəqliyyatın inkişaf tendensiyalarına qoyulan müasir tələblər | 3 |
| 2. | İdarəetmənin funksiyalarının nəqliyyat sahəsində tətbiqi | 3 |
| 3. | Yük partiyası və onun logistika proseslərinin səmərəliliyinə təsiri. | 3 |
| 4. | Yük axınlarının modelləşdirilməsi. | 3 |
| 5. | Logistika mərkəzləri. | 3 |
| 6. | Nəqliyyat xidmətləri bazarında 3PL provayderləri | 3 |
| 7. | Nəqliyyat sistemlərinin idarə olunmasında davamlı inkişaf prinsipləri. | 3 |
| 8. | Dəniz nəqliyyatının təşkili və texniki bazası. | 3 |
| 9. | Logistika sistemlərində daxili su nəqliyyatının istifadəsi | 3 |
| 10. | İntermodal daşıma modelləri. | 3 |
| | Cəmi | 30 |

## 3.Fənn üzrə tədris-metodiki materiallar

### 3.1. Əyani və digər tədris-metodiki vəsaitlərin, metodiki materialların siyahısı

| № | Adı | Mövzu planı üzrə mövzunun şifri | Miqdarı |
|---|---|---|---|
| 1 | Təqdimatlar | Bütün mövzular | Elektron |

Mit CamScanner gescannt

| | | | |
|---|---|---|---|
| 2 | Fənnin öyrənilməsinə dair metodiki göstərişlər | Bütün mövzular | Elektron və çap nüsxəsi |
| 3 | Mühazirələr və əlavə tədris materialları | Bütün mövzular | Elektron və çap nüsxəsi |
| 4 | Kompüter proqramları | Praktik yönümlü mövzular üzrə | - |

## 3.2. Tövsiyə olunan ədəbiyyat

### 3.2.1. Əsas ədəbiyyat


1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunu, iyun 2008 - ci il.
2. Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 11 iyun 1998-cu il.
